**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

11 iyul 2026-cı il №25 (9178) www.muallim.edu.az muallim@media.edu.az

# SABAH PROQRAMININ MƏZUNLARI ÖLKƏNİN İNSAN KAPİTALINI FORMALAŞDIRIRLAR



**"SABAH qrupları Azərbaycan ali təhsil sisteminin bir brendinə çevrilib. Eyni zamanda da Azərbaycan ali təhsil sistemində keyfiyyətlə bağlı olan hədəflərimiz istiqamətində atılmış ən mühüm addımlardan biridir**

**SABAH Azərbaycan təhsilinin sabahıdır. Müəyyən bir zamandan sonra SABAH qrupları böyüyərək artıq Azərbaycan təhsilinin bu gününə çevriləcək**

**Bu gün məzun olan SABAH tələbələrinin bir çoxu bu layihə başlayarkən hələ orta məktəbdə oxuyan, yaxud da təhsilin digər səviyyələrində təhsil alan uşaqlar olublar**

**SABAH qrupu layihəsi Azərbaycan ali təhsilinin, həmçinin Azərbaycan ali təhsilinin məzunlarının keyfiyyətinə müsbət təsir edib**

**Təhsilin bütün mənası insan yetişdirmək və bu insanları öz ölkəsinə layiq və dəyərli bir insana, yəni resursa çevirməkdən ibarətdir"**



## Türkiyə-Azərbaycan Universitetinin Himayəçilər Şurasının növbəti iclası keçirilib



Bax səh.3

## Azərbaycan ilə Koreya arasında təhsil sahəsində uğurlu əməkdaşlığın nümunəsi



Bax səh.2

**Vətən müharibəsi qazisi:**

## "Ən böyük sevincim şagirdlərimin vətənpərvər gənclər kimi yetişdiyini görmək idi"



"Ən əsas amillər əzm, intizam, zəhmət, komanda ruhu və şagirdlərin özlərinə inamı idi. Onlar xilasedicilik bacarıqları ilə yanaşı, məsuliyyət, liderlik, çevik qərarvermə, qarşılıqlı əməkdaşlıq, dözümlülük və özünəinam kimi keyfiyyətlər qazandılar. Bundan əlavə, yataq yerlərini səliqəyə salmaq, geyimlərini ütüləmək, nizam-intizam qaydalarına riayət etmək kimi gündəlik həyat üçün vacib vərdişlər də əldə etdilər".

Bax səh.4

## 3 azərbaycanlı gəncin "Bayraktar" xəyalı gerçəyə çevrildi



Peşə Təhsili üzrə Dövlət Agentliyi və "Bayraktar Teknoloji Azərbaycan" MMC arasında qurulan əməkdaşlıq çərçivəsində "2026-cı il Yay Təcrübə Proqramı"nda 3 gənc iştirak edir. Təhsil mütəxəssisləri bunun gənclərin müdafiə sənayesi, innovativ texnologiyalar və yüksək texnoloji istehsal sahələrində praktiki bilik və bacarıqlar əldə etmələri üçün mühüm imkan olduğunu düşünürlər. Bəs bu imkanı qazananlar kimlərdir? Həmin 3 gənc - Saleh Pirizadə, Turqut Xəlilzadə və Vidadi İbramxalilov Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbələridir.

Bax səh.5

## Beynəlxalq jurnalda məqalə dərc etdirmək istəyirsiniz?




Elmi məqalə yazmaq tədqiqatçının akademik fəaliyyətində mühüm mərhələdir. Lakin beynəlxalq indeksli jurnalda məqalə dərc etdirmək yalnız mətn hazırlamaq və onu platformaya yükləməklə bitmir. Bu proses tədqiqat ideyasının düzgün formalaşdırılmasından başlayır, jurnal seçimi, metodoloji əsaslandırma, etik tələblər, rəyçi rəylərinə cavab və nəhayət, nəşr mərhələsinə qədər uzanan ciddi akademik yol xəritəsi tələb edir.

Bax səh.6

## Çində bağçaya getdi, Renmin Universitetində oxuyacaq

Bax səh.5

## "Müəllimin pedaqoji gündəliyi"

Bax səh.6

## "Sağlam gələcəyin yolu idmandan keçir"

Bax səh.7

## Süni intellekt bu peşələrə daha çox təsir göstərəcək

Bax səh.8

# SABAH proqramının məzunları ölkənin insan kapitalını formalaşdırırlar

**İyulun 8-də Heydər Əliyev Sarayında "SABAH-ın Məzunu 2026" tədbiri keçirilib.**



## Elm və təhsil naziri "SABAH-ın Məzunu 2026" tədbirində iştirak edib

Tədbirdə dövlət və özəl qurumların rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rektorları, müəllim və tələbələr, eləcə də digər qonaqlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları SABAH məzunlarının nailiyyətlərini əks etdirən sərgi ilə tanış olublar.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, SABAH qrupları ötən illər ərzində Azərbaycan ali təhsil sisteminin uğurlu layihələrindən birinə çevrilərək ali təhsilin, həm də məzunların keyfiyyətinə müsbət təsir edib.

Nazir qeyd edib ki, SABAH layihəsi ali təhsil müəssisələrində akademik mühitin gücləndirilməsi, istedadlı gənclərin potensialının reallaşdırılması və rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanması istiqamətində həyata keçirilən ən mühüm təşəbbüslərdən biridir. Onun sözlərinə görə, bu gün SABAH proqramının məzunları ölkənin gələcək inkişafında mühüm rol oynayacaq insan kapitalını formalaşdırır. Nazir vurğulayıb ki, təhsilin bütün mənası insan yetişdirmək və onun öz ölkəsi üçün dəyər yaradan insan kapitalına çevrilməsinə şərait yaratmaqdır.






Çıxışının sonunda Emin Əmrullayev SABAH layihəsinin yaradılmasında əməyi olan hər kəsə təşəkkür edib, məzunları təbrik edərək onların Azərbaycanın davamlı inkişafına və cəmiyyətin rifahına mühüm töhfələr verəcəyinə əmin olduğunu bildirib.

Tədbir SABAH qruplarının fəaliyyəti haqqında videoçarx nümayiş etdirilməsi ilə davam edib.

Tədbirdə SABAH məzun tədbirinin hər il təkrarlanan bir ənənəsi - rəmzi SABAH açarının hazırkı məzunlardan növbəti ilin məzunlarına ötürülməsi baş tutub.

Daha sonra ən yüksək göstəriciləri ilə fərqlənən SABAHın məzunları ali təhsil müəssisələrinin rektorları tərəfindən təltif olunublar.

Tədbirdə çıxış edən 2018-ci il UNEC SABAH məzunu, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Ülviyyə Axundova bildirib ki, SABAH qruplarında təhsil alması onun peşəkar inkişafına mühüm töhfə verib. O, SABAH qruplarının tələbələrə müasir bilik və bacarıqlar qazandıraraq onların gələcək karyera uğurlarına geniş imkanlar yaratdığını vurğulayıb.

Tədbir çərçivəsində SABAH qrupları tələbələrinin ifasında musiqi nömrələri də səsləndirilib.

Qeyd edək ki, 2025/2026-cı tədris ilində 11 ali təhsil müəssisəsi üzrə 1285 bakalavr və 452 magistr SABAH qruplarını bitirir. Hazırda Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin SABAH qrupları layihəsi 13 ali təhsil müəssisəsini, 8 ixtisas istiqaməti üzrə 71 ixtisas və ixtisaslaşmanı, bakalavriat və magistratura səviyyələri üzrə 2785 tələbəni və 8212 məzunu əhatə edir.

# Azərbaycan ilə Koreya arasında təhsil sahəsində uğurlu əməkdaşlığın nümunəsi

**Bakı Mühəndislik Universiteti ilə Cənubi Koreyanın İNHA Universiteti arasında icra olunan ikili diplom proqramının (BMU-İNHA İDP) 2025-2026-cı tədris ili məzunları üçün buraxılış mərasimi keçirilib.**

## Nazir müavini BMU-İNHA ikili diplom proqramının III məzun buraxılışı tədbirində iştirak edib







Tədbirdə elm və təhsil nazirinin müavini İdris İsayev, İNHA Universitetinin Himayəçilər Şurasının sədri Yonqrak Sunq, universitetin rektoru Ço Myeonq Voo, Azərbaycanın Koreyadakı səfiri Ramin Həsənov, Koreyanın ölkəmizdəki səfiri Kimqu Kanq, KOICA və KOTRA-nın rəhbər şəxsləri, Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri Qədir Xəlilov, Milli Məclisin deputatları Vüqar Rəhimzadə, Aydın Hüseynov, hər iki universitetin professor-müəllim heyəti, məzunlar, onların valideynləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi yad olunub, hər iki ölkənin dövlət himnləri səsləndirilib. Ardınca BMU-İNHA İDP-nin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən BMU-nun rektoru Yaqub Piriyev "Məzun günü"nü yalnız gənclərin zəhməti və əzmkarlığının bəhrəsi deyil, eyni zamanda Azərbaycan ilə Koreya arasında təhsil sahəsində uğurla inkişaf edən strateji əməkdaşlığın və gələcəyə hesablanmış ortaq baxışın növbəti mühüm nailiyyəti kimi dəyərləndirib. Yaqub Piriyev bildirib ki, 2020-ci ildən həyata keçirilən BMU-İNHA İDP-nin icra müddəti Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncamla 2030-cu ilədək uzadılıb. Vurğulayıb ki, İDP-nin yeni mərhələsində əmək bazarının müasir tələblərinə və qlobal inkişaf meyillərinə uyğun, yüksək perspektiv vəd edən ixtisaslar üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Rektor diqqətə çatdırıb ki, 3+1 modeli əsasında icra olunan proqramda hazırda 330 tələbə təhsil alır. Bu il həmin tələbələrdən 113 nəfər məzun adını qazanaraq hər iki universitetin bakalavr diplomuna yiyələnir. Bununla da proqram üzrə məzunların ümumi sayı 256 nəfərə çatır.

Çıxışının sonunda rektor məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Məzunları təbrik edən elm və təhsil nazirinin müavini İdris İsayev beynəlxalq ikili diplom proqramını uğurla başa vuran gənclərin qazandıqları bilik və bacarıqların onların gələcək peşə fəaliyyətində mühüm rol oynayacağını bildirib. İdris İsayev Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın gənclərin keyfiyyətli təhsil almasına, beynəlxalq təhsil imkanlarının genişləndirilməsinə göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində bu gün ölkədə rəqabətqabiliyyətli mütəxəssislərin formalaşdığını vurğulayıb. Nazir müavini xaricdə ali təhsilin bütün səviyyələri üzrə həyata keçirilən dövlət proqramlarının gənclərin peşəkar inkişafına mühüm töhfə verdiyini qeyd edib, eyni zamanda Prezidentin müvafiq Sərəncamına uyğun olaraq ikili diplom proqramlarının sayının 8-ə çatdırılacağını deyib. İdris İsayev həmçinin süni intellekt dövrünün çağırışlarını nəzərə alaraq gənclərə daim öz üzərlərində çalışmağı, bilik və səriştələrini davamlı artırmağı tövsiyə edib. Nazir müavini məzunların bu uğurunda professor-müəllim heyətinin zəhmətini və valideynlərin dəstəyini xüsusi vurğulayaraq onlara təşəkkürünü bildirib.

İNHA Universitetinin Himayəçilər Şurasının sədri Yonqrak Sunq və universitetin rektoru Ço Myeonq Voo BMU-İNHA İDP-ni Azərbaycan ilə Koreya arasında təhsil sahəsində uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndiriblər. Onlar proqramın tələbələrin beynəlxalq səviyyədə rəqabətqabiliyyətli mühəndis və IT mütəxəssisi kimi formalaşmasına mühüm töhfə verdiyinə, universitetlərarası əməkdaşlığı daha da genişləndirəcəyinə inandıqlarını vurğulayıblar.

Sonra çıxış edən Azərbaycanın Koreyadakı səfiri Ramin Həsənov ölkələrimiz arasında münasibətlərin son illərdə bütün istiqamətlərdə, xüsusilə təhsil, elm və innovasiya sahələrində uğurla inkişaf etdiyini deyib. Bildirib ki, insan kapitalının inkişafı istiqamətində Koreya Azərbaycan üçün etibarlı tərəfdaşdır və birgə layihələr əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir.

Koreyanın ölkəmizdəki səfiri Kimqu Kanq da məzunları təbrik edərək BMU-İNHA İDP-ni Azərbaycan ilə Koreya arasında beynəlxalq təhsil əməkdaşlığının uğurlu modeli kimi səciyyələndirib, proqramın yüksəkixtisaslı kadrların hazırlanmasına və iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verdiyini vurğulayıb.

Çıxışlardan sonra ixtisas birinciləri və universitetin ictimai həyatında fəal iştirak edən məzunlar mükafatlandırılıb, bütün məzunlara diplomlar təqdim olunub.

Mərasimin bədii hissəsində tələbələrin ifasında Azərbaycan və Koreyanın milli rəqsləri nümayiş etdirilib, müxtəlif musiqi kompozisiyalarından ibarət konsert proqramı təqdim olunub.

# Nazir müavini AzMİU-da "Məzun günü" tədbirində iştirak edib






İyulun 3-ü Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) "Məzun günü" tədbiri keçirilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ulu Öndər Heydər Əliyev və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimin açılışında çıxış edən AzMİU-nun rektoru Gülçöhrə Məmmədova məzunları təbrik edərək bildirib ki, 2025/2026-cı tədris ilində AzMİU-da ümumilikdə 3038 tələbə məzun adı qazanıb. Onlardan 2987 nəfəri adi, 51 nəfəri isə fərqlənmə diplomu alıb. Məzunlardan 35 nəfəri əcnəbi vətəndaşdır. Bakalavriat səviyyəsində təhsilini başa vuran tələbələrdən 5 nəfər dünyanın nüfuzlu universitetləri ilə ikili diplom proqramı üzrə məzun olur. Builki məzunlar arasında 61 yaşlı məzunun da olması AzMİU-da təhsilin hər yaş üçün əlçatan olduğunu və universitetin ömürboyu təhsil prinsiplərini uğurla həyata keçirdiyini göstərir.

Gülçöhrə Məmmədova bildirib ki, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı yeni dövrün çağırışlarına cavab verən peşəkar mühəndis və memar kadrlarının hazırlanmasını strateji vəzifəyə çevirib. AzMİU da bu missiyanı uğurla yerinə yetirmək üçün müasir təhsil texnologiyalarını, innovativ yanaşmaları tətbiq edir, əmək bazarının tələblərinə uyğun kadr hazırlığını davamlı şəkildə təkmilləşdirir.

Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini İdris İsayev çıxışında Azərbaycan Memarlıq və İnşaat Universitetinin ölkənin mühəndis və memarlıq təhsilində xüsusi yer tutduğunu bildirib. O qeyd edib ki, müasir dövrdə əmək bazarının tələblərinə cavab verən peşəkar kadrların hazırlanması dövlətin təhsil siyasətinin prioritetlərindəndir.

Nazir müavini AzMİU-da həyata keçirilən təhsil islahatlarını, beynəlxalq əməkdaşlıqları, innovativ yanaşmaları və universitet-sənaye tərəfdaşlığını yüksək qiymətləndirərək vurğulayıb ki, bu istiqamətdə görülən işlər məzunların peşəkar bacarıqlarının inkişafına və onların əmək bazarında rəqabət qabiliyyətinin artırılmasına mühüm töhfə verir.

İdris İsayev məzunları təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzulayıb, əldə etdikləri bilik və bacarıqları ölkənin inkişafı naminə səmərəli şəkildə tətbiq edəcəklərinə əminliyini bildirib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov müasir dövrün çağırışlarına uyğun bilik və bacarıqlara malik gənc mütəxəssislərin hazırlanmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq məzunlara peşə fəaliyyətlərində daim yeniliklərə açıq olmağı, biliklərini davamlı inkişaf etdirməyi və Vətənə layiqincə xidmət etməyi arzulayıb.

Çıxışlarda AzMİU-nun ölkənin tikinti, memarlıq və mühəndislik sahələri üçün yüksəkixtisaslı mütəxəssislər hazırlayan aparıcı ali təhsil müəssisələrindən olduğu vurğulanıb.

Rəsmi hissədən sonra tədbir bədii-musiqili proqramla davam edib.

# Türkiyə-Azərbaycan Universitetinin Himayəçilər Şurasının növbəti iclası keçirilib

**İyulun 6-da Türkiyə-Azərbaycan Universitetinin Himayəçilər Şurasının 7-ci iclası keçirilib.**

İclasda ölkəmizdə səfərdə olan Türkiyə Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvarın rəhbərlik etdiyi nümayəndə heyəti, o cümlədən Türkiyə-Azərbaycan Universitetinin fəaliyyətində iştirak edən Hacettepe Universiteti, İstanbul Texniki Universiteti (İTÜ) və Orta Doğu Texniki Universitetinin (ODTÜ) rektorları iştirak ediblər.

İclas çərçivəsində Türkiyə-Azərbaycan Universitetinin illik hesabatı, eləcə də inkişaf perspektivləri müzakirə edilib.






# Elm və təhsil sahəsində əməkdaşlıq prioritet istiqamətlərdəndir



## Firudin Qurbanov Azərbaycan və Türkmənistan arasında Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclasında iştirak edib

**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Aşqabad şəhərində keçirilən Azərbaycan və Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclasında iştirak edib. İclas çərçivəsində Azərbaycan və Türkmənistan arasında ticarət-iqtisadi, enerji, nəqliyyat və rabitə, kənd təsərrüfatı, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığın mövcud vəziyyəti, eləcə də inkişaf perspektivləri müzakirə olunub.**

Nazir müavini çıxışında Azərbaycan ilə Türkmənistan arasında elm və təhsil sahəsində mövcud əməkdaşlıq və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər barədə məlumat verib. Xüsusilə rəqəmsal, süni intellekt, STEAM, ümumi və ali təhsil sahələrində birgə layihələrin həyata keçirilməsi, tələbə və elmi-akademik heyətin mübadiləsi, beynəlxalq olimpiada və digər tədbirlərdə qarşılıqlı iştirakın genişləndirilməsi, eləcə də birgə elmi-tədqiqatların aparılması kimi bir sıra məsələlərə toxunub. Nazir müavini həmçinin elm və təhsil sahəsində səmərəli əməkdaşlıq üçün institusional əsas yaradan Azərbaycan-Türkmənistan İşçi Qrupunun fəaliyyətinə dair təkliflər irəli sürüb.

Yekunda komissiyanın həmsədrləri tərəfindən iclasın nəticələrinə dair protokol imzalanıb.



# Əmək bazarının dəyişən tələblərinə cavab verən, çevik və müasir peşə təhsili sistemi formalaşdırılır



## *"Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nın yenilənməsi ilə bağlı İşçi qrupun ikinci iclası keçirilib*

**İyulun 8-də Elm və Təhsil Nazirliyində "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nın yenilənməsi istiqamətində yaradılmış İşçi qrupun ikinci iclası keçirilib. Elm və təhsil nazirinin müavini, İşçi qrupun sədri Kənan Kərimzadənin rəhbərliyi ilə keçirilən iclasda Elm və Təhsil Nazirliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil İnstitutu, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Turizm Agentliyinin nümayəndələri iştirak ediblər.**

İclası giriş sözü ilə açan Kənan Kərimzadə bildirib ki, peşə təhsili üzrə ixtisasların təsnifatının yenilənməsi əmək bazarının dəyişən tələblərinə cavab verən, çevik və müasir peşə təhsili sisteminin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. O, ilk iclas zamanı aparılmış müzakirələrin və aidiyyəti qurumlar tərəfindən təqdim edilmiş təkliflərin layihənin təkmilləşdirilməsinə mühüm töhfə verdiyini vurğulayıb.

Daha sonra Elm, ali və peşə təhsili şöbəsinin sektor müdiri Səbinə Babayeva təqdimatla çıxış edərək birinci iclasda səsləndirilən mülahizələr, eləcə də aidiyyəti dövlət qurumlarından daxil olmuş rəy və təkliflər əsasında layihədə aparılmış dəyişikliklər barədə ətraflı məlumat verib. Təqdimat zamanı layihənin yenilənmiş strukturu, ixtisas istiqamətlərinin əmək bazarının mövcud və perspektiv tələblərinə uyğunlaşdırılması, yeni peşələrin təsnifata daxil edilməsi, həmçinin beynəlxalq təcrübə ilə uyğunluğun təmin edilməsi istiqamətində görülən işlər iştirakçıların diqqətinə çatdırılıb.

İclas çərçivəsində işçi qrupun üzvləri tərəfindən layihə üzrə geniş müzakirələr aparılıb, peşə təhsili üzrə ixtisasların daha səmərəli qruplaşdırılması, terminoloji vahidliyin təmin edilməsi və yeni yaranan peşə istiqamətlərinin təsnifatda əks etdirilməsi ilə bağlı fikir və təkliflər səsləndirilib.

Sonda layihənin yekunlaşdırılması istiqamətində növbəti mərhələlər, qarşıda duran vəzifələr və fəaliyyət planı müzakirə olunub. İşçi qrupun üzvləri layihənin əmək bazarının inkişaf meyillərinə və beynəlxalq yanaşmalara uyğun şəkildə tamamlanmasının vacibliyini vurğulayaraq müzakirələrin davam etdirilməsi barədə razılığa gəliblər.

# Ali təhsil sahəsində əməkdaşlıq genişləndirilir

## Həsən Həsənli Ruanda Respublikasının səfiri ilə görüşüb

**İyulun 10-da elm və təhsil nazirinin müavini Həsən Həsənli Ruanda Respublikasının Türkiyə Respublikasındakı və Azərbaycan Respublikasında akkreditə olunmuş fövqəladə və səlahiyyətli səfiri Charles Kayonga ilə görüşüb.**

Görüş çərçivəsində Azərbaycan ilə Ruanda Respublikası arasında ali təhsil sahəsində həyata keçirilən əməkdaşlıq və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər ətrafında müzakirələr aparılıb.



# Nazir müavini İstanbul Atlas Universitetinin rektoru ilə görüşüb

**İyulun 3-də elm və təhsil nazirinin müavini Həsən Həsənli İstanbul Atlas Universitetinin rektoru Ersoy Kocabıçak ilə görüşüb.**

Görüş çərçivəsində tərəflər arasında cari əməkdaşlıq və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər ətrafında müzakirə aparılıb.



# “GƏNC XİLASEDİCİ”







## Nazir müavini beynəlxalq yarışın qaliblərinin mükafatlandırılması mərasimində iştirak edib

**Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil, Gənclər və İdman nazirliklərinin, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən “Gənc xilasedici” XII beynəlxalq yarışın və “Gənc xilasedici və yanğınsöndürən” XIII ümumrespublika birinciliyinin qaliblərinin iyulun 4-də Qəbələ şəhərində mükafatlandırılması mərasimi keçirilib. Mərasimdə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Builki yarışlarda Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Belarus və Rusiyadan olan komandalar iştirakçı, Tacikistan isə müşahidəçi qismində iştirak edib.

Yarışlar yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilərə sağlam həyat tərzinin, fərdi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin və milli-vətənpərvərlik ruhunun aşılanması, xilasedici peşəsinə marağın artırılması, müxtəlif ölkələrin gənc xilasedicilər arasında dostluq və əməkdaşlıq əlaqələrinin formalaşdırılması məqsədilə təşkil edilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan rəsmi hissədə əvvəlcə yarışlarla bağlı videoçarx nümayiş olunub.

Sonra məktəblilərin təqdimatında milli vətənpərvərlik və ölkələr arasında dostluğu tərənnüm edən bədii hissə izlənilib, qaliblərə kubok, diplom, fəxri fərman və qiymətli hədiyyələr, digər iştirakçılara isə fəxri fərman və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, komandalar yarışlarda “Maneələr zolağı”, “Kombinə edilmiş yanğın estafeti”, “Axtarış-xilasetmə işi”, “Komandaların təqdimatı” və “Divar qəzeti” mərhələlərində güclərini sınayıblar.

Gərgin mübarizə şəraitində keçən beynəlxalq yarışda birinci yeri Azərbaycan, ikinci yeri Özbəkistan, üçüncü yeri isə Belarus komandası tutub. Ümumrespublika birinciliyində isə birinci yerə İsmayıllı şəhər N.Behdiyev adına 6 nömrəli tam orta məktəbin, ikinci yerə Naxçıvan Muxtar Respublikası Babək rayon Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbin, üçüncü yerə isə Qusar rayon Yuxarı Zeyxur kənd tam orta ümumtəhsil məktəbinin komandaları layiq görülüb.

---

## Vətən müharibəsi qazisi:

## “Ən böyük sevincim şagirdlərimin vətənpərvər gənclər kimi yetişdiyini görmək idi”

**Bir qələbənin dəyəri təkcə qazanılan medal və diplomlarla ölçülmür. O qələbənin arxasında aylarla davam edən zəhmət, intizam, fədakarlıq, komanda ruhu və Vətən sevgisi dayanır. Babək rayonunun Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbin şagirdlərinin "Gənc xilasedici və yanğınsöndürən" ümumrespublika yarışında qazandığı uğur da məhz bu dəyərlərin nəticəsidir. Yarışın hazırlıq prosesi, həyəcanı və gələcək hədəflər barədə "Azərbaycan müəllimi"nə komandanın rəhbəri, ehtiyatda olan baş leytenant, Vətən müharibəsi qazisi Abbasəli Tarverdiyev və komandanın üzvü Məhəmməd Hacıyev danışıblar.**





### “Bu uğur bizim üçün son deyil, yeni başlanğıcdır”

Vətən müharibəsi qazisi Abbasəli Tarverdiyev 2011-2014-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2014-2018-ci illərdə isə Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Vətən müharibəsində iştirak edib, noyabrın 3-də Xocavənd rayonu istiqamətində gedən döyüşlər zamanı yaralanıb. Müalicə və reabilitasiya prosesindən sonra Silahlı Qüvvələrin sıralarından ehtiyata buraxılıb. 13 dekabr 2021-ci ildən Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbdə hərbi rəhbər vəzifəsində çalışır.

Abbasəli müəllim deyir ki, hərbçi kimi qazandığı təcrübəni bu gün şagirdlərin yetişməsinə sərf edir:

“Çalışdığım müddət ərzində əsas məqsədim şagirdlərdə vətənpərvərlik ruhunu, nizam-intizamı, komanda ruhunu və fövqəladə hallarda düzgün davranış vərdişlərini formalaşdırmaq olub”.

Yarışa hazırlıq isə uzunmüddətli və sistemli şəkildə həyata keçirilib:

"Hazırlıq aylarla davam etdi. Hər gün planlı şəkildə nəzəri və praktiki məşqlər keçirdik".

Müsahibimiz hesab edir ki, uğurun əsas sirri zəhmət və birlikdir:

"Ən əsas amillər əzm, intizam, zəhmət, komanda ruhu və şagirdlərin özlərinə inamı idi. Onlar xilasedicilik bacarıqları ilə yanaşı, məsuliyyət, liderlik, çevik qərarvermə, qarşılıqlı əməkdaşlıq, dözümlülük və özünəinam kimi keyfiyyətlər qazandılar. Bundan əlavə, yataq yerlərini səliqəyə salmaq, geyimlərini ütüləmək, nizam-intizam qaydalarına riayət etmək kimi gündəlik həyat üçün vacib vərdişlər də əldə etdilər".



## Nehrəm məktəblisi:

## “Müxtəlif ölkələrdən olan iştirakçıların bizi alqışlamasını heç vaxt unutmayacağam”

Ən çətin sınağın "Maneələr zolağı" olduğunu deyən Abbasəli Tarverdiyev əlavə edir:

"Bütün mərhələlər məsuliyyətli idi. Xüsusilə “Maneələr zolağı” mərhələsi həm fiziki hazırlıq, həm sürət, həm də dəqiqlik tələb edirdi. Bu mərhələ üzərində dəfələrlə məşq etdik və hər detalı dəqiqliklə işlədik. Hər kəs öz vəzifəsini yüksək məsuliyyətlə yerinə yetirdi və nəticədə bu mərhələdə birinci olmağa nail olduq".

Komandanın ilk iştirakda əldə etdiyi nəticədən danışan hərbi rəhbər deyir ki, bu uğur Babək rayon Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbin tarixində xüsusi yer tutur:

“İlk iştirakımıza baxmayaraq, zona birinciliyinin qalibi olaraq Naxçıvanı ümumrespublika birinciliyində təmsil etmək hüququ qazandıq. Ümumrespublika birinciliyində də uğurla çıxış edərək Azərbaycan ikincisi olduq. Bu uğur göstərdi ki, əzm, düzgün hazırlıq, komanda ruhu və zəhmət sayəsində ən yüksək nəticələri əldə etmək mümkündür".

Abbasəli Tarverdiyevin yaddaşında ən çox iz buraxan məqam isə tamam başqa olub:

"Bir müəllim və Vətən müharibəsi qazisi olaraq ən böyük sevincim şagirdlərimin vətənpərvər, intizamlı və məsuliyyətli gənclər kimi yetişdiyini görmək idi".

Komandanın rəhbəri əlavə edir ki, bu uğur onlar üçün son deyil, yeni başlanğıcdır:

“Məqsədimiz daha da güclənmək, gələcək yarışlarda Azərbaycan çempionu olmaq və beynəlxalq arenada ölkəmizi ən yüksək səviyyədə təmsil edərək dövlət bayrağımızı zirvələrdə dalğalandırmaqdır".

### “Məktəbimizi uğurla təmsil etdiyimiz üçün çox xoşbəxt oldum"

Komandanın üzvlərindən Babək rayon Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbinin şagirdi Məhəmməd Hacıyev də yarışın onun həyatında xüsusi yer tutduğunu deyir.

İdmanla məşğul olan məktəbli bildirir ki, vətənpərvərlik ruhunda keçirilən yarışlarda iştirak etdiyi və komandası ilə birlikdə məktəbini, Babək rayonunu və Naxçıvanı layiqincə təmsil etdiyi üçün çox qürurludur. O, bu yarışa müəlliminin inamı sayəsində qoşulub:

"Müəllimimizin bizə olan inamı və Vətənimizi layiqincə təmsil etmək arzusu məni bu yarışa qoşulmağa həvəsləndirdi. Bu, mənim üçün böyük məsuliyyət və qürur idi".

Məhəmməd deyir ki, yarış günündə yaşadığı sevinc ömrü boyu yaddaşından silinməyəcək:

"Çox böyük sevinc və qürur hissi keçirdim. Əziyyətimizin bəhrəsini gördük. Biz bir ailə kimi idik. Hər zaman bir-birimizi dəstəkləyir, çətin anlarda ruhlandırırdıq. Bu birlik uğurumuzun əsas səbəblərindən biri idi. Yarışın sonunda Azərbaycan bayrağının qürurla dalğalandığını, komandamızın adının səsləndiyini və müxtəlif ölkələrdən olan iştirakçıların bizi alqışlamasını heç vaxt unutmayacağam".

Gələcəklə bağlı arzuları isə belədir:

"Ən böyük arzum Vətənimə layiqli övlad olmaq, valideynlərimi və müəllimlərimi sevindirmək, ölkəm üçün faydalı insan kimi yetişmək və Azərbaycanı beynəlxalq arenalarda uğurla təmsil etməkdir".

**Aytən YUSİFOVA,**
**Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi**

# Uğur hekayələri

## 3 azərbaycanlı gəncin “Bayraktar” xəyalı gerçəyə çevrildi

### “Bayraktar Texnoloji Azərbaycan”da təcrübə keçən tələbələr təəssüratlarını bölüşürlər

**Peşə Təhsili üzrə Dövlət Agentliyi və “Bayraktar Teknoloji Azərbaycan” MMC arasında qurulan əməkdaşlıq çərçivəsində “2026-cı il Yay Təcrübə Proqramı”nda 3 gənc iştirak edir. Təhsil mütəxəssisləri bunun gənclərin müdafiə sənayesi, innovativ texnologiyalar və yüksək texnoloji istehsal sahələrində praktiki bilik və bacarıqlar əldə etmələri üçün mühüm imkan olduğunu düşünürlər. Bəs bu imkanı qazananlar kimlərdir? Həmin 3 gənc - Saleh Pirizadə, Turqut Xəlilzadə və Vidadi İbramxalilov Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbələridir.**

### “Bakı Dövlət Peşə Təhsil Mərkəzində aldığım təhsil bu uğurun birbaşa əsas bünövrəsidir”



**“2026-cı il Yay Təcrübə Proqramı”nın üçüncü iştirakçısı Turqut Xəlilzadə Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin III kurs tələbəsidir. “Proqramla idarə olunan sənaye avadanlıqlarının texniki istismarı” ixtisası üzrə yüksək texniki peşə təhsili alır. “Proqramla idarə olunan dəzgahların CNC operatoru və proqramçısı” ixtisası üzrə yetişir:**

"“Bayraktar Texnoloji Azərbaycan”ın Yay Təcrübə Proqramında bu mərhələyə qədər yüksəlməyim mənim üçün, sadəcə bir nəticə deyil, bu, dəzgah başında keçirdiyim saatların, çəkdiyim əməyin və göstərdiyim texniki intizamın ən real və qürurverici sübutudur. Bu nailiyyət mənə sübut etdi ki, düzgün hədəf və fasiləsiz praktika ilə ən mürəkkəb mühəndislik sistemlərini belə idarə etmək mümkündür”.

Uğur qazanan sayılı şəxslərdən olmasının səbəbini isə belə açıqlayır:

“Müdafiə sənayesi və yüksək texnologiyalar sahəsində dünya brendi olan bir şirkətdə - “Bayraktar Texnoloji Azərbaycan”da peşəkar olmaq, vacib bilik və bacarıqlara yiyələnmək istəyirəm. Öz ixtisasım üzrə müasir sənaye avadanlıqlarının real iş rejimini daxildən öyrənmək, təcrübəmi maksimum səviyyəyə qaldırmaq və ölkəmizin milli texnoloji inkişafına töhfə verə biləcək bir mütəxəssis kimi formalaşmaq mənim ən böyük hədəfimdir”.

“Bayraktar Texnoloji Azərbaycan”ın Yay Təcrübə Proqramı qrupuna adının əlavə edildiyini öyrənəndə keçirdiyi hisslərdən danışan Turqut sözlərinə əlavə edir:

“Bu uğur mənim gələcəyə olan inamımı və texnoloji inkişafa olan motivasiyamı qat-qat artırdı. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində aldığım təhsil bu uğurun birbaşa əsas bünövrəsidir. Bizə burada sadəcə nəzəri dərslər yox, real zavod və istehsalat mühitində tətbiq olunan praktika öyrədilib”.

Turqutun fikrincə, seçim prosesində ona üstünlük qazandıran bacarıqları peşə təhsilində formalaşıb:

"“SolidWorks” və “SolidCAM” proqram təminatlarında sərbəst şəkildə üçölçülü 3D modelləşdirmə etmək, mürəkkəb hissələr üçün kəsim parametrlərini hesablayıb G-kodlarını generasiya etmək və CNC dəzgahlarını sıfırlayaraq G54 istehsalat prosesini müstəqil idarə etmək bacarığımdır. Bundan əlavə, proqramla idarə olunan sənaye avadanlıqlarının texniki istismarı üzrə əldə etdiyim fundamental biliklər və müxtəlif metallar üzərində aparılan emal proseslərindəki dəqiqliyim texniki düşüncə tərzimin bu sahənin tələblərinə tam uyğun olduğunu sübut etdi. Mühəndislik məntiqi ilə problemlərə soyuqqanlı yanaşmağım və real dəzgah başında qazandığım praktiki vərdişlər, məncə, bu seçim prosesində məni digər namizədlərdən fərqləndirən əsas amillərdir”.

Turqut deyir ki, bu təcrübə onun üçün sadəcə peşə bacarıqlarının artırılması yox, həm də şərəfdir:

“Müdafiə sənayesi sahəsində təcrübə qazanmaq mənim üçün sadəcə bir staj deyil, böyük bir milli qürur məsələsidir. Bizim 44 günlük Vətən müharibəsində heyranlıqla və qürurla izlədiyimiz, şanlı tariximizin yazılmasında misilsiz rol oynayan pilotsuz uçuş aparatlarını və innovativ texnologiyaları istehsal edən bu dünya brendinin bir parçası olmaq, onun daxili sirlərini öyrənmək mənim üçün ən böyük şərəfdir. Bu mühitdə təcrübə qazanmaq gələcəkdə ölkəmin yerli sənayesinə və milli texnoloji inkişafına töhfələr verə biləcək professional bir mütəxəssis kimi formalaşmaq deməkdir.

Bu təcrübə proqramından ən böyük gözləntim müasir müdafiə sənayesinin ən xırda mühəndislik detallarına qədər olan iş prinsiplərini birbaşa bu sahənin peşəkarlarından öyrənməkdir. İstehsalat prosesindəki yüksək intizamı, proqramla idarə olunan avadanlıqların real zavod mühitindəki daxili idarəetmə metodologiyasını mənimsəmək istəyirəm. Təcrübə müddətində özümü maksimum dərəcədə sübut edim, öyrəndiyim hər bir detalı praktikada xətasız tətbiq edim və gələcəkdə “Bayraktar Texnoloji Azərbaycan” ailəsinin daimi üzvünə çevrilərək burada çalışan o peşəkarlardan biri olum”.

Karyera hədəflərindən danışan gənc Turqut bu proqramın onun öz hədəflərə çatmağında necə rol oynayacağından da danışıb:

“Mən peşəkar karyeramı müdafiə sənayesində proqramla idarə olunan sənaye avadanlıqlarının CNC, CAD/CAM mühəndisliyinin tətbiqi və istehsalat texnologiyaları sahəsində qurmaq istəyirəm. Bu hədəfə çatmaq üçün gələcəkdə özümü görmək istədiyim yeganə və ən ideal ünvan məhz “Bayraktar Texnoloji Azərbaycan” şirkətidir. Bu Yay Təcrübə Proqramı mənim gələcək karyera hədəflərim üçün, sadəcə bir başlanğıc deyil, bu məqsədə aparan ən böyük və həlledici yoldur. Proqram sayəsində şirkətin daxili istehsalat fəlsəfəsini, yüksək intizamını və texnoloji standartlarını mənimsəyərək, gələcəkdə “Bayraktar Texnoloji Azərbaycan”ın peşəkar mütəxəssislərindən biri olmaq yolunda ən güclü bünövrəni qoyacağıma əminəm”.

### “Məzun kimi daha böyük imkanlar əldə edəcəyimə şübhə etmirəm”

**Saleh Pirizadə 18 yaşındadır. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində “Proqramla idarə olunan sənaye avadanlıqlarının texniki istismarı” ixtisası üzrə III kurs tələbəsidir. Yüksək Texniki Peşə təhsili alır. CAD/CAM proqramları (SolidWorks, SolidCAM), robototexnika və avtomatlaşdırılmış sənaye sistemləri ilə çox maraqlanır:**



Təhsil müddətində iştirak etdiyi ən önəmli və məsuliyyətli fəaliyyət "Robotchallenge Azerbaijan 2026" yarışması üçün hazırladığı robot layihəsi olub: “Bu layihədə mənə robotun mexaniki hissələrini hazırlamaq təklif olundu. İlk növbədə geniş daxili araşdırmalar apardım və robotun komponentlərini “SolidWorks” proqramında sıfırdan üçölçülü (3D) olaraq dizayn etdim. Daha sonra bu hissələrin CNC frez dəzgahında emal olunması üçün “SolidCAM” proqram təminatından istifadə edərək lazımi G-kodlarını çıxartdım. Müəllimimin də texniki məsləhətləri və dəstəyi ilə emal prosesində istifadə olunacaq kəsici alətlərin seçimini etdim, dəzgahı sıfırladım və hissələri xətasız şəkildə emal edərək layihəni uğurla tamamladım”.

Bu cür uğurlu işləri sayəsində indi onun qarşısında yeni və daha böyük fürsət açılıb:

“Sevinirəm ki, bu gün buradayam. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsi olaraq belə bir qapı açıldısa, məzunu olaraq daha böyük imkanlar əldə edəcəyimə şübhə etmirəm. Burada qazandığım uğurlarımın açarı mürəkkəb texniki çertyojları real istehsalat mühitində xətasız tətbiq etməyə çalışmağımdır. Dəzgah başında saatlarla işləyirəm”.

### ""Bayraktar Texnoloji Azərbaycan"ın əməkdaşı olmağı düşünürəm"

**Mərkəzin digər tələbəsi - Vidadi İbramxalilov Qusar rayonundandır. O da Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində “Proqramla idarə olunan sənaye avadanlıqlarının texniki istismarı” ixtisası üzrə təhsil alır:**



“Bayraktar Teknoloji Azərbaycan”ın əməkdaşları müəssisəmizə gəlib bizi “2026-cı il Yay Təcrübə Proqramı”nda iştirak edə biləcəyimizlə bağlı məlumatlandırdı. Müraciət etdim və bu prosesdə hec bir çətinliklə qarşılaşmadim. Qəbul olduğumu biləndə çox sevindim”.

Proqrama seçilə bilməsini belə izah edib: “Təhsil aldığım müddətdə proqramla idarə olunan dəzgahlara marağım daha da artdı. Məncə, bu da seçilməyimə kömək etdi”.

Vidadi bu proqramı öz gələcəyi üçün fürsət hesab edir: "“Bayraktar Teknoloji Azərbaycan”ın əməkdaşı olmağı düşünürəm. Əldə etdiyim bu uğuru gələcək həyatım üçün açılmış bir qapı kimi görürəm və ondan maksimum dərəcədə istifadə etmək üçün əlimdən gələni edəcəyəm”.

### “Tələbələrimiz bilikləri, texniki bacarıqları ilə seçildilər”

**Tələbələrinin uğurunu mərkəzin uğuru kimi dəyərləndirən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Şaban Cəərçiyevin fikrincə, bu uğurun arxasında tələbələrin həm yerli, həm də beynəlxalq yarışlarda, hakatonlarda iştirak etmələridir ki, bu yarışlar vasitəsilə dəyərli təcrübə qazanırlar:**



"“Bayraktar Texnoloji Azərbaycan”da yer tutan tələbələrimiz bu il iki beynəlxalq yarışın iştirakçısı olub və nəticələr əldə ediblər. Bu da istər-istəməz tədrislə - tələbələrin nəzəri hazırlığı ilə yanaşı, innovativ mühitdə, komanda şəklində fəaliyyət göstərmək, yeni təcrübələr qazanmaq imkanlarını, bilik və bacarıqlarını artırır”.

Direktorun sözlərinə görə, mərkəzin tələbələrini digərlərindən fərqləndirən vacib amil yanaşmadır:

“Bu gün sənaye təkcə diplomu olan deyil, problemi həll etməyi bacaran, komandada işləyə bilən, yeni texnologiyalara tez uyğunlaşan mütəxəssislərə ehtiyac duyur. Biz də tədris prosesini məhz bu bacarıqlar üzərində qurmağa çalışırıq. Mərkəzimizdə tələbələr yalnız nəzəri bilik əldə etmir, onlar emalatxanalarda işləyir, real avadanlıqlarla tanış olur, sənayeyönümlü layihələrdə iştirak edir, yarışlara qatılır, ideyalarını məhsula çevirməyi öyrənirlər. Çalışırıq ki, mərkəzimizdə təhsil alan tələbələr, sadəcə peşə sahibi deyil, istehsalat mühitində dəyər yarada biləcək mütəxəssis kimi yetişsinlər”.

Direktor əlavə edib ki, tələbələr də çox zəhmətkeşdirlər:

“Onlar seçim mərhələlərində öz bilikləri, texniki bacarıqları və ən əsası öyrənməyə olan həvəsləri ilə seçildilər. Seçim prosesi kifayət qədər ciddi idi. Tələbələr müxtəlif mərhələlərdən, o cümlədən müsahibələrdən uğurla keçərək bu proqramda iştirak hüququ qazandılar. Biz, sadəcə onların bu mərhələyə hazır olmaları üçün doğru mühiti yaratmağa çalışdıq”.

Ona görə də yalnız biliyi deyil, həmçinin tələbələrin gələcək potensialını da dəyərləndirən “Bayraktar Texnologiya Azərbaycan” Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbələrinə üstünlük verib:

“Tələbələrimiz müsahibələrdə göstəriblər ki, öyrənməkdən çəkinmirlər, məsuliyyət götürə bilirlər və texnologiyaya maraqları dərs otağı ilə məhdudlaşmır”.

Bu yeni əməkdaşlığın verəcəyi töhfə də böyük olacaq: “Bu əməkdaşlıq həm tələbələrimiz, həm də peşə təhsili üçün olduqca vacibdir. Çünki gənclər dünyanın qabaqcıl texnologiya mühitlərindən birini yaxından görəcək, real istehsalat prosesində təcrübə qazanacaq və əminəm ki, əldə etdikləri bilik və baxış bucağını sənayenin inkişafı üçün sərf edəcəklər”.

**Ruhiyyə DAŞSALAHLI**

## Çində bağçaya getdi, Renmin Universitetində oxuyacaq



### Selcanın maraqlı təhsil yolu

### “Azərbaycan övladı kimi dövlətimi layiqincə təmsil etmək ilk hədəfimdir”

**Abşeron-Xızı RTİ-nin tabeliyindəki Veysəl Musibov adına Xırdalan şəhər 5 nömrəli tam orta məktəbin builki məzunu Selcan Cəfərli Çinin ictimai və humanitar elmlər üzrə qabaqcıl ali təhsil ocağı olan Renmin Universitetinə qəbul olub. Selcan universitetdə "Beynəlxalq siyasət" ixtisası üzrə bakalavr təhsilini tam təqaüdlə Çin dilində oxuyacaq.**



2009-cu ildə Bakı şəhərində anadan olan Selcanın 2 yaşı olarkən ailəsi işlə əlaqədar Çinə köçüb. Bir il Çinin Pekin şəhərində uşaq bağçasına gedən balaca azərbaycanlı qız daha sonra əcnəbilərin Çin dilində təhsil alması üçün nəzərdə tutulan xüsusi məktəbdə oxuyub:

"Mən Çində ibtidai təhsil almışam. Çində ibtidai təhsil 6 il davam edir, oradakı təhsilimi əla qiymətlərlə başa vurdum. Pekində Çin dili ilə yanaşı ingilis dili biliklərimi təkmilləşdirirdim. Daha sonra Azərbaycana gəldim və təhsilimi Veysəl Musibov adına Xırdalan şəhər 5 nömrəli tam orta məktəbdə davam etdirdim".

Hələ uşaq yaşlarından Çin dilini öyrənməyə başlayan Selcan ötən il Çin dili bilik səviyyəsi üzrə 6-cı mərhələ imtahanını (HSK6) uğurla verərək müvafiq sertifikat əldə edib.

Ötən ay isə Selcan Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun təşkilatçılığı ilə orta məktəb şagirdləri arasında keçirilən 19-cu beynəlxalq “Çin dili körpüsü” müsabiqəsinin Azərbaycan üzrə finalında birinci yeri tutub. Selcan bu nəticə ilə payızda Çində “Dünya Çin dili körpüsü” müsabiqəsində Azərbaycanı təmsil edəcək.

"Renmin Universitetinə qəbul olmağım və tam təqaüdlə təhsil alacağım barəsində məktubu alanda ailəmlə birgə böyük sevinc hissi yaşadıq. Mən bakalavr səviyyəsi üzrə Asiya, magistr səviyyəsi üzrə isə Qərb təhsili almağı planlaşdırıram. Magistr təhsilimi fərqli sahə - "Biznesin idarəedilməsi", "Beynəlxal biznes" kimi iqtisadi ixtaslar üzrə davam etdirmək istərdim. İncəsənət, dizayn sahəsinə də böyük maraq göstərmişəm. Bir Azərbaycan övladı kimi harada olmağımdan asılı olmayaraq dövlətimi layiqincə təmsil etmək ilk hədəfimdir".

Məlumat üçün qeyd edək ki, 1937-ci ildə təsis edilən Renmin Universiteti Çində dünya standartlarında universitetləri və ixtisasları əhatə edən “İkiqat birinci sinif təşəbbüsü”nə ilk daxil edilən ali təhsil ocaqlarından biridir. Çinin Təhsil Nazirliyinin son qiymətləndirməsinə əsasən, Renmin Universiteti iqtisadiyyat, statistika, biznesin təşkili və idarə edilməsi, hüquq, siyasi elmlər, sosiologiya, jurnalistika və dövlət idarəetməsi istiqamətləri üzrə ölkənin bütün ali təhsil ocaqlarını qabaqlayıb. Renmin Universiteti 2014-cü ildə “Times Higher Education” tərəfindən Çinin 5 ən nüfuzlu ali təhsil müəssisəsindən biri elan edilib.

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**

# "Müəllimin pedaqoji gündəliyi"

Azərbaycan Gənc Müəllimlər Assosiasiyası ilə birgə layihə



## Retinanı aktivləşdirən oxuyub-anlama texnologiyası

Müasir təhsil sistemində şagirdlərin oxuyub-anlama bacarığının inkişafı sadəcə mətni başa düşmək deyil, həm də düşünmə, analiz və tətbiqetmə bacarığı formalaşdırmaq məqsədi daşıyır. Son illər aparılan tədqiqatlar göstərir ki, beynin görmə mərkəzinin – retinanın aktivləşdirilməsi oxu zamanı diqqət və yaddaşın güclənməsində mühüm rol oynayır. Qısa olaraq retina haqqında məlumat versək, Retina-gözün arxa divarını örtən, işığa həssas və görmə hüceyrələrindən (çubuqlar və konuslar) ibarət olan ağ tabakadır. Bu hüceyrələr işığı elektrik siqnalına çevirir, bu siqnallar isə görmə siniri vasitəsilə beyinə göndərilərək görüntülərin yaranmasını təmin edir. Retina görmə prosesinin baş verdiyi ən vacib hissədir və onun sağlamlığı aydın görmək üçün zəruridir. Buna əsaslanaraq, dərslərdə oxuyub-anlama prosesini vizual stimullar üzərindən qurmaq tədris nəticələrini xeyli yaxşılaşdırır.

Əsas məqsəd şagirdlərin oxuyub-anlama bacarığını retina əsaslı vizual aktivləşmə metodları ilə inkişaf etdirməkdir. Bu yanaşma, mətni sadəcə oxumaq yox, onu vizual, rəng, hərəkət və işıq impulsları vasitəsilə beyində canlandırmağa yönəlib. Yenilik ondan ibarətdir ki, oxu prosesi vizual kodlaşdırma, rəng və forma yaddaşı, emosional təsir prinsiplərinə əsaslanır.

### Metodologiya

- **Rəngli mətn və markerləşdirmə:** Mətndə əsas ideyalar fərqli rənglərlə vurğulanır, beləliklə, retina müxtəlif rəng impulslarını qəbul edərək diqqət səviyyəsini artırır.
- **Vizual qrafiklər və konsept xəritələri:** Oxunan mətndən sonra əsas anlayışlar vizual şəkildə təsvir edilir.
- **İnteraktiv platformalar:** Nearpod, Mentimeter və Canva kimi alətlər vasitəsilə oxunan mətnlər interaktiv test və vizual tapşırıqlarla müşayiət olunur.
- **İşıq və hərəkət effektləri:** Qısa videolar və animasiyalar vasitəsilə mətnin emosional təsiri gücləndirilir.
- **Fəal oxu metodu:** Şagirdlər oxuduqları mətnin vizual sxemini özləri quraraq həm göz, həm beyin, həm də emosional yaddaşı aktivləşdirirlər.
- Oxuduğunu anlaması və yadında saxlaması üçün tanış olduğu məlumat haqqında suallara cavab tapması da şagirdə kömək edəcəkdir. Buna görə " Suallar kubu" üsulundan istifadə edə bilərik. Qeyd edilən bütün metodlar real təcrübəmə əsaslanmış və nəticə əldə edilmişdi. Metodun tətbiqi zamanı şagirdlərimin:

- *mətni qavrama və analiz etmə bacarığı 30—40% artmış;*
- *dərsə marağı və diqqət səviyyəsi yüksəlmiş;*
- *mətn üzrə yaradıcı tapşırıqları yerinə yetirmə göstəriciləri yaxşılaşmışdır.*

Tövsiyə olunur ki, bu üsul:

- *digər fənnlərdə (musiqi , təsviri incəsənət, texnologiya ) də tətbiq edilsin;*
- *təhsil platformalarına retina əsaslı vizual tapşırıqlar əlavə olunsun, müəllimlər üçün qısa təlim modulları hazırlanaraq bu yanaşmanın istifadəsi genişləndirilsin.*

"Retinanı aktivləşdirən oxuyub-anlama" yanaşması həm ənənəvi oxu prosesinə elmi əsaslı yenilik gətirir, həm də müasir texnologiyalardan sinifdə səmərəli istifadəyə imkan yaradır. Bu metod şagirdlərdə yaddaş, diqqət və düşünmə sinxronluğunu təmin edərək müasir tədris məqsədlərinə uyğun nəticələr verir.

**Sevgi ƏMİRXANOVA,**
**Bakı şəhəri 140 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi**

# Beynəlxalq jurnalda məqalə dərc etdirmək istəyirsiniz?

**Elmi məqalə yazmaq tədqiqatçının akademik fəaliyyətində mühüm mərhələdir. Lakin beynəlxalq indeksli jurnalda məqalə dərc etdirmək yalnız mətn hazırlamaq və onu platformaya yükləməklə bitmir. Bu proses tədqiqat ideyasının düzgün formalaşdırılmasından başlayır, jurnal seçimi, metodoloji əsaslandırma, etik tələblər, rəyçi rəylərinə cavab və nəhayət, nəşr mərhələsinə qədər uzanan ciddi akademik yol xəritəsi tələb edir. Bu gün "Scopus" və "Web of Science" kimi beynəlxalq bazalarda indekslənən jurnallar elmi ictimaiyyət üçün xüsusi əhəmiyyət daşıyır. Belə jurnallarda məqalə dərc etdirmək tədqiqatçının elmi nüfuzunu artırır, universitetlərin beynəlxalq tanınmasına müsbət təsir edir, qrant və akademik yüksəliş imkanlarını genişləndirir. Ancaq bu jurnalların əsas üstünlüyü yalnız beynəlxalq bazalarda yer alması deyil. Əsas məsələ həmin jurnalların ciddi seçim, rəy və keyfiyyətə nəzarət mexanizmlərinə malik olmasıdır. Yüksək reytinqli jurnal dedikdə, adətən "Scopus", "Web of Science", "Journal Citation Reports" və digər nüfuzlu sistemlərdə izlənilən, elmi təsiri və sitat göstəriciləri yüksək olan nəşrlər nəzərdə tutulur. "Scopus" jurnalları qiymətləndirərkən onların rəy prosesinin mövcudluğuna, ISSN qeydiyyatına, müntəzəm nəşr olunmasına, beynəlxalq auditoriya üçün oxunaqlı olmasına, ingilisdilli başlıq və annotasiyalara, həmçinin açıq nəşr etikası siyasətinə diqqət yetirir. "Web of Science Core Collection" isə SCIE, SSCI, AHCI və ESCI kimi indekslər vasitəsilə müxtəlif elm sahələrini əhatə edir.**




## Bunları mütləq bilməlisiniz

### Bir çox məqalələr zəif olduğuna görə yox, yanlış jurnala göndərildiyi üçün rədd edilir

Beynəlxalq jurnala məqalə göndərməzdən əvvəl müəllifin ilk sualı belə olmalıdır: "Mənim tədqiqatım bu jurnalın oxucusu üçün niyə vacibdir?" Çünki bir çox məqalələr zəif olduğuna görə deyil, jurnalın mövzu dairəsinə uyğun gəlmədiyinə görə ilkin mərhələdə rədd edilir. Buna görə də jurnal seçimi məqalə tamamlandıqdan sonra deyil, tədqiqatın planlaşdırılması mərhələsindən düşünülməlidir.

Jurnal seçərkən yalnız "Scopus indekslidir" və ya "Q1/Q2 jurnaldır" ifadələrinə əsaslanmaq düzgün deyil. Müəllif əvvəlcə jurnalın məqsəd və əhatə dairəsini oxumalı, son illərdə nəşr etdiyi məqalələri təhlil etməli, hansı metodoloji yanaşmalara üstünlük verdiyini müəyyənləşdirməlidir. Əgər jurnal daha çox nəzəri və konseptual məqalələr çap edirsə, yalnız təsviri statistikaya əsaslanan sadə araşdırmanın qəbul şansı aşağı ola bilər. Əksinə, tətbiqi araşdırmalara üstünlük verən jurnal üçün həddindən artıq nəzəri mətn də uyğun görünməyə bilər.

Məqalənin qəbul şansını artıran əsas amillərdən biri güclü tədqiqat problemidir. Beynəlxalq jurnallar üçün yalnız "bu mövzu ölkəmizdə araşdırılmayıb" fikri kifayət etmir. Bu, yalnız coğrafi boşluğu göstərir. Halbuki güclü elmi boşluq daha dərindir: mövcud tədqiqatlarda ziddiyyət varmı? Əvvəlki modellər hansı dəyişikliyi nəzərə almayıb? Mövcud metodlar problemi tam izah edə bilirmi? Yeni tədqiqat əvvəlki biliklərə nə əlavə edir?

Güclü məqalənin giriş hissəsi oxucunu mövzuya sadəcə tanış etmir, onu problemin vacibliyinə inandırır. Girişdə dörd sualın cavabı aydın görünməlidir: problem nədir, bu problem niyə vacibdir, mövcud ədəbiyyatda nə çatışmır və bu məqalə həmin boşluğu necə doldurur? Əgər bu suallara cavab aydın deyilsə, redaktor məqalənin əsas töhfəsini görməkdə çətinlik çəkə bilər.

Ədəbiyyat icmalı da beynəlxalq jurnallarda xüsusi diqqətlə qiymətləndirilən bölmələrdəndir. Zəif ədəbiyyat icmalı müəlliflərin ardıcıl sadalanmasına bənzəyir: bir tədqiqatçı bunu deyib, digəri başqa nəticəyə gəlib. Güclü ədəbiyyat icmalı isə mənbələr arasında əlaqə qurur, tədqiqatları tematik qruplaşdırır, fərqli nəticələri müqayisə edir və elmi mübahisənin xəritəsini yaradır. Başqa sözlə, ədəbiyyat icmalı "kim nə deyib?" sualından daha çox "bu sahədə əsas mübahisə nədir?" sualına cavab verməlidir.

### Metod zəifdirsə, nəticələrin maraqlı olması məqaləni xilas etmir

Beynəlxalq jurnalların ən ciddi diqqət etdiyi məsələlərdən biri metodologiyadır. Çünki metod zəifdirsə, nəticələrin maraqlı olması məqaləni xilas etmir. Tədqiqat sualı, dizayn, nümunə, ölçmə aləti, analiz üsulu və nəticə iddiası bir-biri ilə uyğun olmalıdır. Məsələn, kəsişmə tipli tədqiqat əsasında səbəb-nəticə əlaqəsi iddia etmək metodoloji baxımdan risklidir. Belə dizayn əlaqəni göstərə bilər, lakin səbəbi sübut etmir.

Nümunə ölçüsü də yalnız iştirakçı sayının çoxluğu ilə qiymətləndirilmir. Əsas məsələ budur: seçilmiş nümunə müəllifin irəli sürdüyü nəticəni deməyə imkan verirmi? 1000 nəfərlik qeyri-təsadüfi və zəif planlaşdırılmış nümunə bəzən 150 nəfərlik düzgün seçilmiş nümunədən daha zəif ola bilər. Buna görə müəllif seçmə prosesini, nümunənin əsaslandırılmasını, ölçmə alətlərinin etibarlılığını və analiz metodunu şəffaf şəkildə təqdim etməlidir.

Statistik nəticələrin təqdimatında da yalnız p-dəyərinə əsaslanmaq kifayət etmir. Yüksək səviyyəli jurnallar nəticənin gücünü, praktik əhəmiyyətini, effekt ölçüsünü, etibarlılıq intervalını və alternativ izahları görmək istəyir. Rəqəm yalnız nəticə deyil; rəqəmin elmi mənası izah olunmalıdır.

Məqalənin müzakirə hissəsi isə nəticələrin sadəcə təkrarı olmamalıdır. Bu bölmədə müəllif nəticələrin nə demək olduğunu, əvvəlki araşdırmalarla necə əlaqələndiyini, hansı nəzəri və praktik nəticələr doğurduğunu izah etməlidir. Əgər nəticələr əvvəlki tədqiqatlarla ziddiyyət təşkil edirsə, bu fakt gizlədilməməlidir. Əksinə, həmin ziddiyyət yeni elmi müzakirə üçün imkan yarada bilər.

Beynəlxalq jurnallarda rədd cavablarının əsas səbəbləri arasında mövzu dairəsinə uyğun olmamaq, elmi yeniliyin zəifliyi, metodoloji çatışmazlıqlar, zəif analiz, nəticələrin əsaslandırılmaması, köhnəlmiş ədəbiyyat, etik problemlər və jurnalın texniki tələblərinə əməl edilməməsi yer alır. Bu səbəbdən məqaləni göndərməzdən əvvəl müəllif onu redaktor və rəyçi gözü ilə oxumalıdır.

Nəşr etikası da artıq formal tələb deyil, beynəlxalq akademik mədəniyyətin əsas şərtidir. Plagiat, öz-özünə plagiat, müəlliflik hüquqlarının düzgün göstərilməməsi, süni sitat artırma, məlumatların saxtalaşdırılması, eyni məqalənin bir neçə jurnala eyni vaxtda göndərilməsi ciddi etik pozuntu sayılır. Müəlliflər məqalədə istifadə olunan məlumatların necə toplandığını, iştirakçı hüquqlarının necə qorunduğunu, maraqların toqquşmasının olub-olmadığını və süni intellekt alətlərindən istifadə edilibsə, bunun necə aparıldığını şəffaf göstərməlidirlər.

### Həddindən artıq sürətli qəbul vədi ciddi xəbərdarlıq siqnalı hesab olunmalıdır

Son illərdə saxta və şübhəli jurnallarla bağlı risklər də artıb. Buna görə müəlliflər jurnalın adını, nəşriyyatını, rəy prosesini, indekslənmə statusunu və ödəniş siyasətini mütləq yoxlamalıdırlar. Həddindən artıq sürətli qəbul vədi, zəmanətli nəşr təklifi, qeyri-şəffaf ödəniş sistemi və redaksiya heyəti haqqında natamam məlumat ciddi xəbərdarlıq siqnalı hesab olunmalıdır. Etibarlı jurnal qəbul vəd etmir; o, rəy prosesi və elmi keyfiyyət tələb edir.

Məqalə rəy prosesinə göndərildikdən sonra müəllifin işi bitmir. Rəyçilərdən düzəliş tələbi gəldikdə, cavab məktubu peşəkar və strukturlaşdırılmış hazırlanmalıdır. Hər rəy ayrıca cavablandırılmalı, edilən dəyişikliklərin məqalənin hansı hissəsində aparıldığı göstərilməli, razılaşılmayan məqamlarda isə emosional yox, elmi və metodoloji əsaslandırma verilməlidir. Rəyçiyə cavab məktubu müəllifin akademik mədəniyyətini göstərən mühüm sənəddir.

Beynəlxalq indeksli jurnallara gedən yol uzun və ciddi tələblərlə doludur. Lakin bu yolun məntiqi aydındır: düzgün problem seçimi, güclü ədəbiyyat icmalı, əsaslandırılmış metodologiya, etik şəffaflıq, uyğun jurnal seçimi və peşəkar təqdimat. Yüksək reytinqli jurnalda nəşr təsadüfi uğur deyil. Bu, sistemli hazırlığın, akademik intizamın və elmi düşüncənin nəticəsidir.

Elmi məqalə yalnız məlumat verməməlidir. O, mövcud biliyə yeni baxış gətirməli, tədqiqat sahəsində aparılan müzakirəyə qoşulmalı və həmin müzakirəyə real töhfə verməlidir. Beynəlxalq jurnalların axtardığı da məhz budur: sadəcə yazılmış məqalə deyil, elmi əsaslandırılmış, metodoloji baxımdan möhkəm və akademik baxımdan etibarlı tədqiqat.



**Vaqif FƏTULLAYEV,**
**Təhsil mütəxəssisi, tədqiqatçı, jurnalist**



# ATASININ ARZUSU İLƏ BÖYÜYƏN ÇEMPİON:

## "Onun xəyalını gerçəkləşdirmək istəyirəm"

**"Azərbaycan müəllimi"nin budəfəki həmsöhbəti Masallı rayonu Ərkivan qəsəbəsi Bağlaküçə kənd 3 nömrəli tam orta məktəbinin VIII sinif şagirdi Aqil Abbasovdur. Yaşının az olmasına baxmayaraq, artıq idman aləmində qazandığı uğurlarla diqqət çəkən Aqil Məktəblilərarası Respublika İdman Olimpiadasında (MRİO) 38 kq çəki dərəcəsində mübarizə apararaq qazandığı qızıl medalla həm məktəbinin, həm də rayonunun idman nailiyyətlərinə yeni uğur əlavə edib. Lakin gənc pəhləvan üçün bu qələbə yalnız başlanğıcdır. Qarşısında daha böyük hədəflər var - Avropa, dünya və Olimpiya çempionu olmaq.**



Masallı rayonunun Ərkivan qəsəbəsində yaşayan Aqilin idmana yolu hələ 7 yaşından başlayıb. Uşaqlıqdan güləşə böyük maraq göstərən məktəbli qısa müddətdə bu idman növünü həyatının ayrılmaz hissəsinə çevirib. O, güləş növləri arasında yunan-Roma güləşinə üstünlük verib və bütün diqqətini bu istiqamətdə inkişaf etməyə yönəldib.

Gənc idmançının idmana gəlişində ailəsinin, xüsusilə atasının rolu böyük olub. Vaxtilə özü də güləşlə məşğul olan atası oğlunda bu idman növünə sevgi yaradıb. Bu gün Aqilin ən böyük motivasiyalarından biri də atasının reallaşmayan arzularını gerçəkləşdirməkdir.

“İdmana gəlməyimdə ən böyük rol atamın olub. Atam vaxtilə güləşlə məşğul olub, bu idman növünü çox sevib. O, Avropa, dünya və Olimpiya çempionu ola bilməyib. Mən isə onun arzularını həyata keçirmək, gələcəkdə ölkəmi beynəlxalq arenalarda layiqincə təmsil etmək istəyirəm”, - deyə Aqil bildirir.

İdmanla yanaşı, təhsilinə də məsuliyyətlə yanaşan məktəbli ən çox riyaziyyat fənnini sevdiyini deyir. Onun fikrincə, idmançı üçün fiziki hazırlıq qədər intizamlı olmaq, düşünmək və öyrənmək də vacibdir.

Bu gün qızıl medal qazanan Aqil Abbasov sabah Azərbaycanın bayrağını Avropa, dünya və Olimpiya arenalarında yüksəklərə qaldırmağı qarşısına məqsəd qoyub. O, öz uğurlarını yalnız şəxsi nailiyyət kimi deyil, həm də ailəsinin, müəllimlərinin etimadını doğrultmaq üçün bir məsuliyyət kimi qəbul edir.

Yaşıdlarına müraciət edən gənc pəhləvan onları idmanla məşğul olmağa, sağlam həyat tərzi seçməyə və daim öz üzərlərində çalışmağa çağırır:

“İstəyirəm ki, bütün uşaqlar idmanla məşğul olsunlar. Həvəslə çalışsınlar, məqsədlərindən dönməsinlər. Uğur qazanmaq üçün zəhmət çəkmək lazımdır. Mən bütün yaşıdlarıma uğurlar arzulayıram”.

Qarşısında uzun və məsuliyyətli yol olsa da, Aqil Abbasovun baxışları gələcəyə yönəlib. Bu gün məktəbli idmançı kimi qazandığı uğurlar onun böyük hədəflərə doğru inamla addımladığını göstərir. Əzmi, zəhmətsevərliyi və qalibiyyət ruhu isə gələcək qələbələrinin əsas təminatıdır.

**Nilufər HACILI,**
**Lənkəran-Astara üzrə regional təmsilçi**

# İDMAN VƏ SAĞLAMLIQ



# Həkim-fizioterapevt: "Sağlam gələcəyin yolu idmandan keçir"

**Sağlam uşaqlıq dövrü sağlam və uğurlu gələcəyin təməlidir. Uşaqların fiziki, zehni və sosial inkişafında balanslı qidalanma, keyfiyyətli yuxu və müntəzəm fiziki aktivlik əsas amillərdən hesab olunur. Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı və elektron cihazlardan istifadənin artması uşaqların gündəlik hərəkətliliyinin azalmasına, açıq havada keçirdikləri vaxtın məhdudlaşmasına səbəb olub. Mütəxəssislərin fikrinə görə, bu tendensiya artıq çəki, duruş pozuntuları, diqqət və davranış problemləri, eləcə də müxtəlif sağlamlıq risklərinin artmasına zəmin yaradır.**

Uşaqların erkən yaşlardan idmana və aktiv həyat tərzinə cəlb olunması isə yalnız onların fiziki sağlamlığını möhkəmləndirmir, eyni zamanda özünəinamın formalaşmasına, intizam və məsuliyyət hissinin inkişafına, komanda ruhunun və sosial bacarıqların güclənməsinə mühüm töhfə verir. Bu prosesdə valideynlərlə yanaşı, orta ümumtəhsil müəssisələrinin, idman məktəblərinin də rolu böyükdür. Ümumtəhsil məktəblərində keçirilən fiziki tərbiyə dərsləri uşaqların fiziki və mənəvi sağlamlığının qorunmasına, hərəki bacarıqlarının (çeviklik, dözümlülük, əzələ gücü) inkişafına və gümrah böyümələrinə, hərəkət vərdişlərinin formalaşmasına xidmət etdiyi kimi, idman məktəbləri də onların istedadlarının üzə çıxarılmasına, peşəkar və ya həvəskar səviyyədə idmana marağının artırılmasına şərait yaradır. Sağlam həyat tərzinin təşviqində ailənin, məktəbin və cəmiyyətin birgə fəaliyyəti gələcək nəsillərin sağlam böyüməsinin əsas şərtlərindən biridir.

Bəs uşaqlar hansı yaşdan etibarən idmanla məşğul olmalıdırlar? Yaşa uyğun fiziki fəaliyyətin seçilməsi nə dərəcədə vacibdir? Hərəkətli həyat tərzi onların fiziki və psixoloji sağlamlığına nə kimi müsbət təsirlər göstərir? Orta ümumtəhsil müəssisələri, idman məktəbləri bu istiqamətdə hansı rolu oynayır?

Bu və digər suallara Respublika Pediatriya Mərkəzinin Uşaq Bərpa Mərkəzinin Fizioterapiya şöbəsinin müdiri, həkim-fizioterapevt Təranə Mahmudova ilə söhbətimizdə aydınlıq gətirməyə çalışdıq.



*“Sağlam həyat tərzi uşağın həm bugünkü, həm də gələcək sağlamlığının bünövrəsidir”*

### “İdmanla məşğul olan uşaqlar daha fəal, təşəbbüskar və ünsiyyətcil olurlar”

*- Təranə həkim, sağlam həyat tərzinin əsas prinsipləri hansılardır?*

- Sağlam həyat tərzi uşağın həm bugünkü, həm də gələcək sağlamlığının bünövrəsidir. Bir həkim olaraq qeyd edə bilərəm ki, sağlam həyat tərzi yalnız düzgün qidalanmaqdan ibarət deyil. Buraya balanslı qidalanma, keyfiyyətli yuxu, gündəlik fiziki aktivlik, şəxsi gigiyena qaydalarına əməl etmək, həmçinin sağlam və dəstəkləyici psixoloji mühit də daxildir.

Sağlam uşaq səhər enerjili oyanan, gün ərzində aktiv olan, öyrənməyə maraq göstərən, özünü xoşbəxt hiss edən və yaşıdları ilə rahat ünsiyyət qura bilən uşaqdır. Uşağın həm fiziki, həm də emosional rifahı eyni dərəcədə vacibdir.

Müasir dövrdə ekran qarşısında keçirilən vaxtın artması da diqqət tələb edən məsələlərdəndir. Uşaqların açıq havada daha çox vaxt keçirməsi, hərəkətli oyunlarla məşğul olması və ailə ilə keyfiyyətli vaxt paylaşması onların sağlam inkişafına müsbət təsir göstərir.

Ən önəmlisi isə odur ki, sağlam vərdişlər uşaqlıqdan formalaşır. Uşaq valideynini nümunə götürür. Ailədə sağlam qidalanma, hərəkətli həyat tərzi və müsbət ünsiyyət mühiti varsa, həmin vərdişlər təbii şəkildə uşağa da ötürülür. Bu gün atılan kiçik addımlar gələcəkdə piylənmə, şəkərli diabet, ürək-damar xəstəlikləri kimi bir çox sağlamlıq problemlərinin qarşısının alınmasına kömək edir.

*- İdmanın uşaqların fiziki və psixoloji inkişafına təsiri nədən ibarətdir?*

- İdman uşaqlara nizam-intizam, məsuliyyət hissi və məqsədə çatmaq üçün çalışmağı öyrədir. Fiziki baxımdan onların sümük və əzələ sistemi möhkəmlənir, hərəkət koordinasiyası yaxşılaşır, əzələləri, dayaq hərəkət sistemini möhkəmlədir, ürək qan-damar sistemini gücləndirir, immuniteti artırır. Fiziki məşqdən sonra dayaq hərəkət aparatı, hərəkətlərin dəqiqliyi, koordinasiyası, cəldlilik, dözümlülük formalaşır. Psixoloji baxımdan isə özünəinam artır, stres azalır və uşaqlar daha sosial olurlar.

Fizioterapevt kimi gündəlik praktikamda həm də görürəm ki, hərəkətli həyat tərzi keçirən uşaqlarda duruş pozuntuları, əzələ zəifliyi və artıq çəki problemlərinə daha az rast gəlinir.

Bilirsiniz, idman uşaqların fiziki və psixoloji inkişafına da müsbət təsir göstərir. Uşağın orqanizmi inkişaf mərhələsində olduğu üçün hərəkət onun təbii ehtiyacıdır. İdman bədənin düzgün formalaşmasına, duruş pozuntularının qarşısının alınmasına və ümumi sağlamlığın möhkəmlənməsinə kömək edir. Digər tərəfdən, idman uşaqlara emosiyalarını idarə etməyi, uğur və məğlubiyyəti düzgün qəbul etməyi öyrədir. Bu da onların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

*- Uşaqlar gündə nə qədər fiziki aktiv olmalıdırlar və müxtəlif yaş qrupları üçün hansı idman növlərini tövsiyə edirsiniz?*

- Əslində, fiziki hərəkətə həyatın ilk illərindən başlamaq lazımdır. Kiçik yaşlarda bu, daha çox oyun formasında olur. Uşaqlarda gündəlik fiziki aktivlik yaşa görə dəyişir. Məsələn, 2-5 yaşlı uşaqlarda ən azı 3 saat aktiv hərəkət, müalicəvi idman 15-20 dəqiqə təlimatçının köməyi ilə, eləcə də oyun şəklində, qaçmaq, tullanmaq şəklində aparılır. 5 yaşdan etibarən isə uşaqlar yaşlarına uyğun idman məşğələlərinə cəlb oluna bilərlər. 6 yaşdan yuxarı uşaqlar idmanın üzgüçülük, qaçış, futbol, basketbol, voleybol, və sair növləri ilə məşğul ola bilərlər. Məşqlərin 35- 60 dəqiqə aralığında keçirilməsi məqsədəuyğundur.

Məktəbyaşlı uşaqların gündə ən azı 60 dəqiqə aktiv hərəkət etməsi tövsiyə olunur. Bu, mütləq peşəkar idman məşqi demək deyil. Velosiped sürmək, açıq havada oynamaq, qaçmaq, üzmək və ya komanda oyunlarında iştirak etmək də fiziki aktivliyə daxildir. Burada əsas məsələ, uşağın gün ərzində hərəkətdə olmasıdır.

Son illərdə kompüter və telefon qarşısında keçirilən vaxtın artması səbəbindən uşaqlarda onurğa əyrilikləri, yastı pəncəlik və duruş problemləri ilə daha tez-tez qarşılaşırıq. Müntəzəm fiziki aktivlik bu problemlərin yaranma riskini əhəmiyyətli dərəcədə azaldır və bədənin düzgün inkişafını dəstəkləyir.

Məktəbəqədər yaşlı uşaqlar üçün üzgüçülük, gimnastika və hərəkətli oyunlar çox faydalıdır. Məktəb yaşında futbol, basketbol, voleybol, atletika, rəqs və digər komanda oyunları həm fiziki, həm də sosial bacarıqları inkişaf etdirir. Ən vacibi odur ki, uşağın marağı və istəyi nəzərə alınsın. Uşaq sevdiyi fəaliyyətlə məşğul olduqda davamlılıq da daha yüksək olur.

### Uşağın həm hərəkətə, həm də istirahətə ehtiyacı var

*- Valideynlər övladlarını idmana həvəsləndirmək üçün nə edə bilərlər?*

- Uşaqlar daha çox deyilənləri yox, gördüklərini təkrarlayırlar. Əgər valideyn özü aktiv həyat tərzi sürürsə, piyada gəzməyə üstünlük verirsə, sağlam qidalanırsa, uşaq da bunu norma kimi qəbul edir. Valideynlər övladlarını məcbur etmək əvəzinə, birlikdə idman etməyə çalışsalar, daha yaxşı nəticə əldə edərlər. Birgə velosiped sürmək, parkda gəzmək və ya sadəcə açıq havada olmaq, oyun oynamaq belə uşağın idmana münasibətini dəyişə bilər. Valideynlər övladlarının telefon, TV vaxtını məhdudlaşdırmalı, onlarla daha çox ünsiyyət yaratmalıdırlar. Hər bir valideyn övladına nümunə olmalıdır.

*— Uşaqların gündəlik rejimində idman və istirahət arasında balans necə qurulmalıdır?*

— Reabilitasiya prosesində tez-tez müşahidə edirik ki, həm hərəkətsizlik, həm də həddindən artıq fiziki yüklənmə uşağın sağlamlığına mənfi təsir göstərə bilər. Buna görə də uşağın yaşına, fiziki imkanlarına və gündəlik fəaliyyətlərinə uyğun balanslı rejim qurulması çox vacibdir.

İdman və fiziki aktivlik uşaqların sağlam böyüməsi üçün əvəzolunmazdır. Hərəkət zamanı əzələlər və oynaqlar aktiv işləyir, qan dövranı sürətlənir, tənəffüs sistemi daha effektiv fəaliyyət göstərir. Müntəzəm idman uşağın gücünü, dözümlülüyünü, koordinasiyasını artırır, həmçinin özünəinamının formalaşmasına və sosial bacarıqlarının inkişafına da müsbət təsir edir. Lakin unutmaq olmaz ki, hər bir fiziki fəaliyyətin ardından bərpa dövrünə də ehtiyac var. İdman zamanı orqanizm enerji sərf edir və həmin enerjinin yenidən bərpa olunması üçün istirahət vacibdir. Əgər uşaq kifayət qədər dincəlməzsə, yorğunluq, diqqət azalması, hətta zədələnmə riski yarana bilər. Digər tərəfdən, günün böyük hissəsini hərəkətsiz keçirmək də əzələ zəifliyinə, artıq çəkiyə və ümumi fiziki hazırlığın aşağı düşməsinə səbəb ola bilər.

Bəzən valideynlər övladlarının inkişafını düşünərək onları müxtəlif idman növlərinə, dərnəklərə və əlavə məşğələlərə yönləndirirlər. Ancaq bu zaman müəyyən nüanslar da diqqətdə saxlanılmalıdır. Uşağın istirahətə, sərbəst oyuna və ailəsi ilə keyfiyyətli vaxt keçirməyə də ehtiyacı olduğunu nəzərə almaq lazımdır. Düzgün balans qurulduqda uşaq həm enerjili, aktiv, həm də motivasiyalı olur. Bu balansın əsas hissələrindən biri də keyfiyyətli yuxudur. Yuxu zamanı orqanizm bərpa olunur, böyümə və inkişaf prosesləri daha aktiv şəkildə gedir.

Valideynlərə tövsiyə edirəm ki, uşaqları gündəlik olaraq açıq havada hərəkət etməyə, qaçmağa, oynamağa və sevdikləri idman növü ilə məşğul olmağa təşviq etsinlər. Ən vacibi isə odur ki, idman uşaq üçün bir məcburiyyət deyil, zövq aldığı və həyat tərzinə çevrilən bir fəaliyyət olsun. Sağlam inkişafın açarı məhz hərəkət, düzgün qidalanma və kifayət qədər istirahət arasındakı balansdır.

### Sağlam böyümənin qızıl qaydaları…

*- Uşaqların sağlam böyüməsi üçün "qızıl qaydalar" nələrdir? Sizcə, sağlam və fəal nəslin yetişməsi üçün ailə və məktəbin rolu nədən ibarətdir?*

- Əslində, sağlam böyümənin “qızıl qaydaları” çox sadədir. Bu, düzgün qidalanma, hərəkət, kifayət qədər yuxu və sevgi dolu mühitdir. Ailə bu vərdişlərin formalaşdığı ilk məktəbdir. Məktəb isə uşaqların sosial və fiziki inkişafını dəstəkləyən mühitdir. Hər iki tərəfin əməkdaşlığı sağlam nəslin yetişməsi üçün vacibdir. Məktəbdə keçirilən fiziki tərbiyə dərsləri, idmanla bağlı yarışlar, tədbirlər, müsabiqələr, sosial mühit, komanda şəklində işləmək uşaqlarda motivasiya yaratmaqla yanaşı, onların fiziki hazırlığının yüksəldilməsində, istedadlarının üzə çıxarılmasında, eyni zamanda tərbiyəsinə müsbət təsir göstərir, nizam intizamını və sosial inkişafını formalaşdırır. Onu da qeyd edim ki, bu məsuliyyət yalnız ailənin və ya məktəbin üzərində deyil. Cəmiyyət olaraq uşaqlar üçün daha çox idman və oyun sahələri yaratmalı, sağlam həyat tərzini təbliğ etməli və onların aktiv böyüməsi üçün imkanlar formalaşdırmalıyıq.

*- Bu yaxınlarda Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və müvafiq idman federasiyalarının dəstəyi ilə ölkəmizdə ilk dəfə Məktəblilərin Respublika İdman Olimpiadası keçirildi. Bir həkim olaraq, olimpiadanın şagirdlərimizin fiziki və psixoloji sağlamlığına, sağlam həyat tərzi vərdişlərinin formalaşmasına və gələcək inkişafına hansı müsbət təsirləri olduğunu düşünürsünüz?*

- Bu olimpidanı təbii ki, çox gözəl bir təşəbbüs olaraq qiymətləndirirəm. Mənim fikrimcə, Məktəblilərin Respublika İdman Olimpiadası təkcə idman yarışı deyil, həm də gənc nəslin sağlam inkişafına xidmət edən çox önəmli bir layihədir. Hesab edirəm ki, belə yarışlar uşaq və yeniyetmələrin fiziki hazırlığını artırmaqla yanaşı, onların sağlam həyat tərzinə marağını gücləndirir.

Sağlam gələcəyin yolu idmandan keçir.

**Samirə KƏRİMOVA**

# Süni intellekt bu peşələrə daha çox təsir göstərəcək



**Avstraliya hökuməti süni intellektin əmək bazarına təsiri ilə bağlı ilk milli hesabatını dərc edib. Avstraliya Hökumətinin Məşğulluq və Əmək Münasibətləri Departamentinin Baş İqtisadçılar Ofisi tərəfindən hazırlanmış "Avstraliyada süni intellekt və məşğulluq" adlı hesabatına əsasən, süni intellektin inkişafı ən çox ofis, maliyyə, idarəetmə və analitik bilik tələb edən sahələrdə çalışan mütəxəssislərin fəaliyyətinə təsir göstərəcək.**

Fiziki əmək və insanla birbaşa ünsiyyət tələb edən peşələr isə bu texnologiyadan nisbətən daha az təsirlənəcək.

Hesabatda qeyd edilir ki, süni intellektin inkişafı əmək bazarında peşələrin tamamilə aradan qalxmasından daha çox işin görülmə formasını dəyişdirir. Texnologiya xüsusilə məlumatların toplanması və təhlili, sənədlərin hazırlanması, yazışmaların aparılması, hesabatların tərtibi və planlaşdırma kimi vəzifələrin yerinə yetirilməsini sürətləndirir. Bu səbəbdən belə tapşırıqların üstünlük təşkil etdiyi peşələrə süni intellekt daha çox təsir edəcək.

Araşdırmaya əsasən, süni intellektin ən çox təsir göstərəcəyi peşələr bunlardır:

— inzibati və ofis işçiləri;
— katiblər və qəbul üzrə əməkdaşlar;
— mühasiblər və auditorlar;
— reklam, marketinq və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislər;
— proqram təminatı hazırlayan mütəxəssislər və proqramçılar;
— biznes və idarəetmə üzrə təhlilçilər;
— maliyyə və sığorta sahəsində çalışan mütəxəssislər;
— hüquq və məsləhət xidmətləri sahəsində çalışan mütəxəssis

Hesabat müəllifləri vurğulayırlar ki, bu peşələrin risk altında olması onların gələcəkdə yox olacağı anlamına gəlmir. Əksinə, süni intellekt bir çox hallarda işçiləri əvəz etməkdən daha çox onların işini asanlaşdıran və məhsuldarlığını artıran alət kimi çıxış edir.

Sənəddə qeyd olunur ki, tikinti, istehsalat, yaşlılara qulluq, təmizlik, qida hazırlanması və digər fiziki əmək, eləcə də insanla birbaşa ünsiyyət tələb edən peşələr süni intellektin təsirinə daha az məruz qalacaq.

Araşdırmada həmçinin bildirilib ki, 2022-ci ilin noyabr ayından 2026-cı ilin fevral ayınadək süni intellektdən ən çox təsirlənən peşələrdə məşğulluq 5,6 faiz artdığı halda, bu texnologiyadan daha az təsirlənən peşələrdə artım 9,5 faiz olub. Bununla belə, müəlliflər hesab edirlər ki, süni intellektin əmək bazarına uzunmüddətli təsirini qiymətləndirmək üçün hələ kifayət qədər vaxt keçməyib və indiki mərhələdə onun kütləvi iş yerlərinin itirilməsinə səbəb olduğu barədə qəti nəticə çıxarmaq düzgün deyil.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu,
Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 6868 **Sifariş:** 892

**Məsul növbətçi:** S.Kərimova



**Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi**

# Mingəçevir Dövlət Universiteti

## Riyaziyyat və informasiya texnologiyaları fakültəsinin dekanı vəzifəsi üzrə müsabiqə

## ELAN EDİR:

Mingəçevir Dövlət Universiteti Riyaziyyat və informasiya texnologiyaları fakültəsinin dekanı vəzifəsinə müsabiqə elan edir. Müsabiqədə fakültənin profilinə uyğun peşə-ixtisas hazırlığı, elmi dərəcəsi və elmi adı, ən azı 5 il elmi-pedaqoji təcrübəsi olan namizədlər iştirak edə bilərlər.

**Əmək funksiyası:**

- Fakültədə tədris, elmi-tədqiqat, metodiki, təşkilati və tərbiyəvi işlərin planlaşdırılmasına və həyata keçirilməsinə rəhbərlik etmək;
- Təhsilalma formaları üzrə mühazirələrin, laborator, praktik seminar məşğələlərinin və s. təşkili və keçirilməsi üzrə fakültənin professor-müəllim heyətinin fəaliyyətini əlaqələndirmək;
- Yekun dövlət attestasiyasına, ixtisas üzrə təcrübəyə, kurs və buraxılış işləri layihələrinə, tələbələrin sərbəst işlərinə, imtahanların keçirilməsinə, tələbələr arasında tərbiyəvi işlərin təşkilinə rəhbərlik etmək;
- Fakültə üzrə tədris prosesinin mövcud normativ sənədlərə, tədris planlarına və proqramlara uyğun təşkilinə nəzarət etmək;
- Professor-müəllim heyətinin dərs yükünün bölgüsünü aparmaq, onun müzakirəsi və təsdiqini təşkil etmək;
- Professor-müəllim heyətinin fərdi və təqvim planlarını təsdiq etmək;
- Təsdiq olunan fənlər üzrə tədris proqramlarının işlənib hazırlanmasına rəhbərlik etmək və onları təsdiq etdirmək;
- Bu proqramlara uyğun dərsliklərin, tədris-metodiki və tədris vəsaitlərinin hazırlanmasını təmin etmək;
- Fakültədə təhsil alan tələbə və magistrantların tədris, elmi-tədqiqat, innovasiya və praktiki hazırlıq fəaliyyətlərinin inkişafına şərait yaratmaq;
- Təsdiq olunmuş plana uyğun olaraq professor-müəllim heyətinin və tələbələrin elmi-tədqiqat işləri aparmasına şərait yaratmaq, bitmiş elmi-tədqiqat işlərinin müzakirəsini keçirmək və onların nəticələrinin istehsalata tətbiqinə nəzarət etmək;
- Fakültə Elmi Şurasının fəaliyyətini təşkil etmək, fakültənin struktur bölmələrinin fəaliyyətini əlaqələndirmək;
- Fakültədə keyfiyyət təminatı, akademik intizam, tələbəyönümlü tədris mühiti və müasir idarəetmə yanaşmalarının tətbiqini təmin etmək.

**Bilməlidir:**

- “Təhsil haqqında” və “Elm haqqında” Azərbaycan Respublikasının qanunlarını;
- Elm və təhsil sahələrinə aid Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin aidiyyəti qərar və sərəncamlarını;
- Azərbaycan Respublikasının təhsil sahəsi üzrə mərkəzi icra hakimiyyəti orqanının aidiyyəti qərar, sərəncam və əmrlərini;
- sosial-iqtisadi inkişaf tələblərinə uyğun bilik və bacarığa malik mütəxəssis yetişdirilməsinə olan tələbləri;
- ali təhsil üzrə təsdiq edilən dövlət təhsil standartlarını və proqramlarını;
- aparılan elmi-tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılmasını, elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin təşkil olunmasını;
- ali məktəb pedaqogikasını və psixologiyasını, tədris planlarının və proqramlarının tərtibini;
- tədris olunan hər bir fənn üzrə proqramların, laborant-texniki heyətin və professor-müəllim heyətinin görəcəyi auditoriyadan kənar işlərin məzmununu;
- müəllim və tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik məsələlərini;
- təhsil müəssisələrinin qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılmasını;
- tədris prosesində təlimin texniki vasitələrindən istifadəni;
- əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydalarını.

Namizədin aktiv elmi-tədqiqat fəaliyyəti ilə məşğul olması, yüksək indeksli beynəlxalq və yerli elmi jurnallarda məqalələrinin dərc edilməsi üstünlük kimi qiymətləndirilir.

**Tələb olunan sənədlər:**

- rektorun adına yazılmış ərizə (universitet əməkdaşları üçün, universitetdən kənar əməkdaşlar üçün);
- şəxsiyyət vəsiqəsinin surəti;
- kadrların şəxsi qeydiyyat vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti;
- Dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı.

**Qeyd:** Tələblərə cavab verən namizədlər tələb olunan sənədləri 31.07.2026-cı il tarixinədək “Riyaziyyat və informasiya texnologiyaları fakültəsinin dekanı vəzifəsi üzrə elan edilmiş müsabiqədə iştirak” yazmaqla **vacancy@mdu.edu.az** elektron poçt ünvanına göndərə bilərlər.

**REKTORLUQ**


# Etibarsız sayılır

**Heydər Əliyev** adına Liseyi 2024-cü ildə bitirmiş Gülüşov Toğrul Vüqar oğluna verilmiş E-685650 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Kiş kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi (keçmiş Kiş kənd 6 nömrəli tam orta ümumtəhsil məktəb) 1989 -cu ildə bitirmiş Səmədova Bənövşə Məmmədiyə qızına verilmiş A-472383 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Kürqaraqaşlı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Əhmədov Elşad İspər oğluna verilmiş 95 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 5 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Əhmədov Səbuhi Əli oğluna verilmiş E-217915 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 27 nömrəli Fizika-riyaziyyat və informatika təmayüll məktəb-liseyi 2006-cı ildə bitirmiş Əliyeva Gülmira Qabil qızına verilmiş B-248174 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2022-ci ildə Məmmədov Fuad Eldəniz oğluna verilmiş C-132652 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası** tərəfindən 2004-cü ildə Məmmədova Mətanət Bəhmən qızına verilmiş B-019421 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Saloğlu qəsəbə tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş İsmayılov Rəsul İslam oğluna verilmiş B-145723 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Babayev Kamran Azər oğluna verilmiş E-055271 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2007-ci ildə Məmmədova Aidə Cavanşir qızına verilmiş B-109881 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 196 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş İbayeva Aytən Bəhruz qızına verilmiş A-202147 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Hüsülü kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş İsmayılova Lalə Faiq qızına verilmiş A-036108 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 24 nömrəli ümumi orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Bayramov Fərid Vidadi oğluna verilmiş A-370517 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 12 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Kamran Faiq oğluna verilmiş E-520760 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 7 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Həsənov Fuad Nizami oğluna verilmiş A-056092 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 13 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Əlizadə Ramal Sarvan oğluna verilmiş E-421072 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** Texniki və Humanitar fənlər liseyini 2021-ci ildə bitirmiş Salmanov Fərid Elvin oğluna verilmiş E-421170 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 24 nömrəli ümumi orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Qədirova Aynurə Bayraməli qızına verilmiş A-161923 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 111 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Rzayev Bilman Qərib oğluna verilmiş E-171987 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 25 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Cəfərova Aynurə Aftandil qızına verilmiş A-481919 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qapanlı kənd tam orta məktəbi 1981-ci ildə bitirmiş Zeynalova Şərafət Yaqub qızına verilmiş 536978 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Füzuli adına təbiət və humanitar fənlər təmayüllü məktəb-liseyi 2014-cü ildə bitirmiş Həsənli (Cəbrayılova) Rəfiqə Vüqar qızına verilmiş A-348342 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xızı rayon** 8 nömrəli orta texniki peşə məktəbi tərəfindən 1995-ci ildə Eyvazov Həsən Davud oğluna verilmiş 3-0993454 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Nərimanov rayon Məktəb-Lisey Kompleksini 2023-cü ildə bitirmiş Quliyeva Zülfiyyə Anar qızına verilmiş E-556793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Mirzəyeva Fidan Fariz qızına verilmiş E-638296 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Məzrəli kənd tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Yusubova (Yaqubova) Təbəssüm Yadigar qızına verilmiş A-385426 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 254 nömrəli tam orta ümumtəhsil məktəbi 1975-ci ildə bitirmiş Hacıyev Əlikram Əli oğluna verilmiş 833910 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 74 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əhmədzadə Mustafa Əhməd Şoaib oğluna verilmiş A-513394 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Əliyev Fərhad Fəxrəddin oğluna verilmiş A-033682 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Ziyadlı kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Kazımov Rabil Mübariz oğluna verilmiş A-576791 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı İslam Universiteti** tərəfindən 2013-cü ildə Nəbiyev Röyal İsax oğluna verilmiş 002724 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Qurbanova (Məhərrəmova) Sara Hüseynağa qızına verilmiş A-861345 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1999-cu ildə Qurbanova (Məhərrəmova) Sara Hüseynağa qızına verilmiş A-031208 nömrəli bakalavr diplomu və 2001-ci ildə verilmiş MNA-005402 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 2001-ci ildə Rzayev Asəf Zuli oğluna verilmiş AB-I-077537 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 1991-ci ildə Hüseynova Səadət Yadigar qızına verilmiş B-455510 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**74 nömrəli Texniki Peşə Məktəbi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1986-cı ildə Yusupov Elqar Şeydayeviçə verilmiş B-607097 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Meşəşambul kənd tam orta ümumtəhsil məktəbi 1974-cü ildə bitirmiş Əsdiyeva Havva Heybullah qızına verilmiş 733355 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli məktəb-liseyi 2009-cu ildə bitirmiş Rzayev Ağa Ramiz oğluna 2012-ci ildə verilmiş A-173316 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa Humanitar Kolleci** tərəfindən 2010-cu ildə Əhmədova Gülnarə Balamirzə qızına verilmiş BB-II-107242 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Yıldız Amin Mehmet oğluna verilmiş E-415347 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abdullayev Turqay Təvəkkül oğluna verilmiş B-303282 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci** tərəfindən 2024-cü ildə Həsənov Nurlan Arzu oğluna verilmiş AA-199521 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli tibb məktəbi** tərəfindən 1998-ci ildə Allahverdiyeva Təranə İsmayıl qızına verilmiş BB-II-116802 nömrəli dublikat diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Əsədbəyli Ağabala Afərin oğluna verilmiş C-105969 nömrəli bakalavr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**Şəki rayon** Köndələn kənd tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Məmişova Nərmin Asim qızına verilmiş E-222329 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Hacıyev Suad Məmməd oğluna verilmiş E-512302 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kolleci** tərəfindən 2021-ci ildə Rzayeva Dünya Aslan qızına verilmiş AA-158008 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Respublika İncəsənət Gimnaziyasını** (indiki Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyası) 1995-ci ildə bitirmiş Kərimov Azər Kərim oğluna verilmiş A-443813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1995-ci ildə Ağayeva Səkinə Əhmədxan qızına verilmiş AB-I-020041 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Şirinova Rəqsanə Misirxan qızına verilmiş E-338989 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Kərimov Kənan Fəyaz oğluna verilmiş A-547198 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 266 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş İbrahimov Röyal Qulu oğluna verilmiş E-448398 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** tərəfindən 2005-ci ildə Əzizova Samirə Gülağa qızına verilmiş BB-II-003184 nömrəli diplom itidiyi üçün etibarsız sayılır.